DOI:10.30546/gdu.3.2024

**UOT:94(479.24).**

# GƏNCƏ ŞƏHƏRİNİN ORTA ƏSRLƏR DÖVRÜ MEMARLIQ İRSİNİN TƏDQİQİNDƏ YAZILI MƏNBƏLƏRİN ƏHƏMİYYƏTİ

***Həsənov Elnur Lətif oğlu***
***Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Bölməsi***
***lnurh273@gmail.com***

**Xülasə:** *Qədim və zəngin tarixi keçmişə malik olan Gəncə şəhərində ənənəvi memarlığın, eləcə də inşa sənətinin orta əsrlər mərhələsində inkişafının səciyyəvi cəhətləri elmi məqalədə tədqiq edilmişdir. Memarlıq və sənətkarlıq xüsusiyyətlərinin araşdırılmasında müxtəlif mənbələr, o cümlədən arxeoloji tapıntılar, etnoqrafik nümunələr, maddi mədəniyyət örnəkləri ilə yanaşı, yazılı mənbələr də xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan Gəncə şəhərinin qədim ənənələrə istinad edən memarlıq və sənətkarlıq ənənələrinin yerli urbanizasiya (şəhərləşmə) mədəniyyətinin tərəqqisində sahib olduğu mənbə kimi əhəmiyyəti müxtəlif yazılı örnəklər - elmi mənbələr, arxiv sənədləri, tarixi məxəzlər, yerli və əcnəbi tədqiqatçıların əsərləri əsasında öyrənilmişdir.*

**Açar sözlər:** Azərbaycan, Gəncə, orta əsrlər dövrü, ənənəvi memarlıq, şəhər mədəniyyəti, sənətkarlıq.

**Ключевые слова:** Азербайджан, Гянджа, средние века, традиционная архитектура, городская культура, ремесло.

**Key words:** Azerbaijan, Ganja, Middle ages, traditional architecture, urban culture, handicrafts.

## *Giriş*

Gəncə şəhərinin memarlıq quruluşuna nəzər saldıqda onun feodal Şərqinin əksər şəhərləri üçün səciyyəvi olan üçpilləli strukturu diqqəti cəlb edir. Gəncə şəhəri İçqala, Şəhristan və Bayırşəhərdən ibarət olmaqla, Gəncə çayı ilə iki qeyri-bərabər hissəyə bölünmüşdü. Belə üçpilləli quruluş orta əsrlər şəhərinin silki bölümünü əks etdirməklə əhalinin sosial tərkibini də göstərir. İçqala və onun daxilindəki Narınqalada xan və onun ailə üzvləri, yaxın qohumları, dövlət adamları – pişxidmətağası, eşikağası, əsasbaşı, xəzinədar, sandıqdar, kələntər və digər yüksək vəzifəli əyanlar yaşayırdılar. Şəhristanda əsas etibarilə sənətkarlar və ticarət əhalisi, Bayırşəhərdə isə əkinçilik, maldarlıq və ipəkçiliklə məşğul olan şəhər sakinləri yaşayırdılar. Məlum olduğu kimi, monqol qoşunları tərəfindən dağıntılara məruz qalmış Gəncə bərpa olunarkən şəhərin qala divarlarının yenidən qurulması məsələsi açıq qalmışdı. Ola bilsin ki, Qızıl Orda xanlarının Azərbaycana hücumunu nəzərə alaraq həmin məsələ XIV yüzlilliyin ortalarında müsbət həll edilmişdi. Cəlairilər, Teymur, Qaraqoyunlular, Ağqoyunlular və Səfəvilərin (I İsmayıl (1501-1524-cü illər) və I Təhmasib (1524-1576-cı illər) hakimiyyəti dövründə)) bir-birini əvəz edən hökmranlıqları zamanı Gəncə vilayəti, sərhədləri demək olar ki, bütün Qafqazı əhatə edən çox güclü dövlət qurumlarının daxili əyalətinə çevrilmişdi. Lakin XVI yüzilliyin ikinci yarısında Gəncə vilayəti Osmanlı-Səfəvi müharibələrinin döyüş meydanına dönür. Məhz bu zaman güclü qala tikilməsi zərurəti bütün varlığı ilə qarşıya çıxır. Həmin vəzifəni 1588-ci ildə türk sərkərdəsi Fərhad paşa yerinə yetirir. Özü də böyük müvəffəqiyyətlə. XVIII yüzilliyin məşhur sərkərdəsi və dövlət xadimi Nadir şah (1736-1747-ci illər) Gəncə qalasını 9 aydan artıq mühasirədə saxladıqdan sonra qarnizonu təslim olmağa məcbur etmişdi. Ərəşli Əli sultan şəhərin Sutökülən məhəlləsinə daxil olsa da (1721-ci ildə), İçqalanı tuta bilməmiş və biabırcasına qaçmışdı. Kartli valisi VI Vaxtanq (1703-1724-cü illər) da bir aya yaxın Çöləkdə ayaq döysə də şəhərə hücum etməyə cəsarət etməmişdi [1]. 1794-cü ildə Kaxetiya valisi II İrakli Gəncə

DOI:10.30546/gdu.3.2024

qalasını dörd ay mühasirədə saxlamasına baxmayaraq onu tuta bilməmiş, yalnız İraklinin müttəfiqi qarabağlı İbrahim xan köməyə gəldikdən sonra məqsədinə nail olmuşdu. Tikildiyi vaxtdan (1588-ci ildən) dağıdılana kimi (XIX əsrin 80-ci illəri) Gəncə qalasını zor gücünə – silah işlətməklə ram etmək ancaq iki sərkərdəyə: 1606-cı ildə Böyük Şah Abbasa və 1804-cü ildə rus generalı Sisianova nəsib olmuşdu [2]. Şah Abbas bu qalanı 4 ay mühasirədə saxlamalı olmuş, lağım atıb qala divarlarının bir hissəsini uçurduqdan sonra ələ keçirə bilmişdi. Sisianovun isə qalanı bir aydan artıq mühasirədə saxlaması, qarnizonu və İçqalaya sığınmış şəhər əhalisini susuzluğa düçar etdikdən sonra işğal etməsi də məlumdur [3].

Bir məqamı da qeyd etmək lazımdır ki, daim hücumlara qarşı sakinləri rəşadətlə döyüşmüş Gəncə şəhərində milli dəyərlərə, mənəvi, əxlaqi adət və ənənələrə daim yüksək ehtiram bəslənilmişdir. Bu baxımdan, şəhərin memarlığından bəhs edərkən bir çox səciyyəvi mədəni dəyərlərinin, onun tarixinin mənəvi mühafizəçisi olan qədim abidələrə - müsəlman Şərqinin ən qədim memarlıq abidələrindən olan, 739-cu ildə inşa edilən İmamzadə türbəsi və Səbzikar qəbiristanlığına şəhər sakinlərinin hədsiz bağlılığı, qayğıkeş və çox həssas münasibəti diqqəti cəlb edir. Haqqında bəhs olunan və təkrarsız, unikal sənətkarlıq və memarlıq xüsusiyyətlərinə sahib çoxsaylı məzar abidələrinin mövcud olması ilə seçilən bu mühüm tarixi-etnoqrafik kompleksləri, həmçinin onların ərazisində olan fərqli xronoloji-tarixi göstəricilərə, epiqrafik (kitabə səciyyəli) cəhətdən bənzərsiz xüsusiyyətlərə malik qəbirləri elmi nöqteyi-nəzərdən tədqiq edərkən bir sıra mühüm məqamların qeyd olunması çox zəruridir:

Əvvəla, 1968-ci ildə ölkəmizin yerli əhəmiyyətli daşınmaz tarix-memarlıq abidələri siyahısına daxil edilmiş Səbzikar qəbiristanlığı, eləcə də 1400 illik tariximizin şahidi olan İmamzadə ziyarətgahı maddi-mədəniyyət nümunəsi, açıq səma altında muzey kimi dəyərlidir. Buradakı məzarüstü abidələri bir-biri ilə oxşar xüsusiyyətlərinin mövcud olmasına baxmayaraq, heç bir türbə yaxud türbə-sərdabə digərinin memarlıq nöqteyi-nəzərdən üslubunu təkrar etmir. Xüsusilə vurğulamaq lazımdır ki, bu qəbir və məzar abidələrinin bir çox qisminə, nəinki yalnız Azərbaycanın ayrı-ayrı bölgələrində, hətta dünyanın əksər ərazilərində təsadüf olunmur. Bu təkrarsız və bənzəri olmayan unikal maddi-mədəniyyət nümunələri o qədər səciyyəvi, eyni zamanda, fərqli xüsusiyyətlərə, sənətkarlıq elementlərinə sahibdir.

Bu türbə və sərdabələrin bütün mövcud nümunələrinin təsnifatını aşağıdakı şəkildə ümumiləşdirmək mümkündür:

1) Ayrı-ayrı şəxslərin cənazələrinin torpağa tapşırıldığı məkanda ucaldılmış türbələr.

2) Əsasən, şəhərin tanınmış nəsillərinin, şəcərələrinin nümayəndələrinin dəfn olunduqları sərdabələr.

3) Gəncənin görkəmli şəxsiyyətlərinin, tanınmış şəcərələrə mənsub ziyalıların, din xadimlərinin qohum-əqrəbaları ilə birgə dəfn edildikləri məzarüstü abidələr kimi təsnif edilən türbə-sərdabələr.

Bir məqamı xüsusi qeyd etmək laızmdır ki, Gəncə Səbzikar məzarlığının müxtəlif tarixi mərhələlərə aid olan fərqli qəbir abidələri ilə zəngin olması əhəmiyyətlidir. Məntiqi cəhətdən yanaşdıqda da aydın olur ki, müasir dövrümüzədək nisbətən qorunub saxlanılmış, müsəlman dəfn adət və ənənələrinə uyğun olaraq isə torpaq qatına qarışaraq tədricən yox olması göz önündə olan bu qəbirlər həm də Gəncə şəhərinin məlum olan sonuncu yerdəyişməsi ilə müvafiq gələn mərhələyə aiddir [4; 8]. Bu mərhələ Səfəvilər dövlətinin inkişaf etdiyi XVI əsr tarixi ilə bağlıdır. Səfəvilər dövlətinin əvvəlki əzəmətini bərpa edən Böyük Şah Abbas Gəncə şəhərini Qızıl Arslan qalasının yanına köçürsə də, İçqalanın özünün bərpa olunması qayğısına qalmamışdı. Bunu XVII yüzilliyin ortalarında Gəncədə olmuş Evliya Çələbinin (1647-ci ildə) və Arseni Suxanovun (1652-ci ildə) qeydləri də təsdiq edir

DOI:10.30546/gdu.3.2024

[5]. Sonrakı tarixi hadisələr – ləzgi tayfalarının aramsız basqınları, VI Vaxtanqın Rusiyanın köməyi ilə Gəncə vilayətini Gürcüstana birləşdirib Səfəvilərin asılılığından qurtarmaq niyyəti və bu məqsədlə şəhərə yürüşləri Gəncə bəylərbəyini (ehtimal ki, II Uğurlu xan Ziyadoğlunu) qalanı bərpa etmək məcburiyyətində qoymuşdu. 1725-ci ilin payızında şəhəri yenidən tutan türklər İçqalanın kərpic divarlarının ətrafına gil-palçıqla çiy kərpicdən və çay daşından ikinci hasar çəkirlər. Bəzi kitablarda göstərilən 1712-1725-ci illərdə Gəncə qalasının tikilməsi faktı bütövlükdə qalanın tikilməsi yox, İçqalanın daxili divarlarının bərpa olunmasını və ikinci divarın – xarici divarın çəkilməsini göstərir [6]. Ehtimal ki, Şəhristanı dövrələyən üçüncü qala divarı da bu zaman çəkilmişdi. 1734-cü ilin payızında Gəncə çayının qabağını kəsib, onu qalaya yönəldən Nadir xan qoşunlarının dağıtmağa müvəffəq olduqları qala divarı da İçqalanın ikinci istehkamı – xarici divarları olmuşdu. Bişmiş kərpicdən hörülmüş daxili divarlar isə suyun təzyiqinə davam gətirə bilmişdi. Ona görə də Nadir xan Gəncə qalasını tuta bilməmiş, onu 9 aydan artıq mühasirədə saxlamalı olmuşdu. Cavad xan Ziyadoğlu hakimiyyəti zamanı (1785-1804-cü illər) qala daha da möhkəmləndirilmişdi. Rus sərkərdəsi A.Suvorov bu dövrdə yazırdı: "Gəncə yaxşı möhkəmləndirilmiş şəhərdir. Burada 50 top, 3000 atlı, 500 piyada vardır". 1803-cü ilin noyabrında hücuma keçən rus qoşunları 1804-cü il yanvarın 3-də Gəncə qalasını almış və onu yenidən bərpa etmişdilər [7]. 1826-cı ilin iyulunda üsyan qaldıran gəncəlilər işğalçıları qaladan qovmuş və Uğurlu xanı qalaya buraxmışdılar. Lakin Uğurlu xan Gəncədə 40 günlük hakimiyyətindən sonra İran-Azərbaycan qoşun dəstələrinin Şəmkir yaxınlığında məğlub olduğunu eşidib, tələsik qalanı tərk etmişdi. Bu hərəkət müsəlman qoşunu və yerli əhali içərisində böyük ruh düşkünlüyü yaratmış, Gəncə döyüşü (13 sentyabr 1826-cı il) ərəfəsində rus qoşunlarının mənəvi qələbəsi hesab olunmuşdu. Gəncə qalası kimi mühüm strateji mövqenin döyüşsüz və şərəfsizcəsinə tərk edilməsi şahzadə Abbas Mirzəni hədsiz dərəcədə qəzəbləndirmişdi [1; 9].

***Tədqiqatın mənbəyi***

Qeyd etmək lazımdır ki, on doqquzuncu əsrin əvvəllərindən əsrin 30-cu illərinə kimi Gəncə hərbi əməliyyatlar meydanında dayaq nöqtəsi kimi mühüm rol oynayırdı. Bu dövrdə qalanın yeni sahibləri də onun möhkəmləndirilməsi üçün əllərindən gələni edirdilər. Lakin 1826-1828-ci illər Rusiya-İran, 1828-29-cu illərdə Rusiya-Türkiyə, 1853-56-cı illər Şərq (Krım) müharibələrinin qurtarması, XIX yüzilliyin 60-cı illərində Şamil hərəkatının məğlub olması, Rusiyanın Qafqazda iqtisadi mövqeyinin möhkəmlənməsi, hərb texnikasının inkişafı və s. amillər Gəncə qalasına ehtiyacı aradan qaldırır [8]. 1868-ci ildə Gəncə quberniya mərkəzinə çevrildikdən sonra şəhərin yeni baş planı işlənib hazırlanır. Quberniyanın arxitektoru İqnati İvanoviç Krjintaloviçin təqdim etdiyi və 1873-cü ildə imperator II Aleksandrın imzaladığı bu baş plana əsasən şəhərin mərkəzi hissəsi – onun tarixi nüvəsi köklü dəyişikliklərə məruz qalır. Formal olaraq orta əsr abidələrinin dağıdılmasını qadağan edən müstəmləkəçi hakimiyyət orqanları qalanı qoruyub saxlamaq qayğısına qalmır, onun dağıdılıb yerində "avropasayağı kvartal" salınmasına göz yumurlar. Nəticədə Gəncə orta əsrlərin memarlıq abidələrinin əzəmətli bir nümunəsindən, şəhərin bədii-memarlıq simasının çox mühüm elementindən – istehkam tikililəri ansamblından məhrum edilmiş olur. İndiki Qala küçəsində Xan bağında qalan Şirəli bəy bürcünün xarabası istisna olmaqla nə vaxtsa "bütün asiyalıların güvəndiyi sipər" sıravi tikililərin altında torpaqlara gömülür [9].

Əldə olunan materiallar əsasında qalanın şəklini və yerləşdiyi ərazini bərpa etməyə çalışaq. Bu barədə mənbələrdə və tədqiqatçı alimlərin araşdırmalarında müxtəlif, çox zaman ziddiyyətli fikirlər söylənilir. Qalanın nə qədər sahəni tutması, hansı əraziləri əhatə etməsi, quruluşu, tikintisinin xarakterik xüsusiyyətlərinin dəqiqləşdirilməsi vacibdir. Çünki bunlarsız keçən yüzilliklərdəki Gəncənin tam real mənzərəsini təsəvvür etmək mümkün deyil.

DOI:10.30546/gdu.3.2024

Gəncə qalasından danışan yazılı mənbələrin əksəriyyəti çox mühüm bir məsələni – Şəhristanı əhatə edən divarların dövrələdiyi Qala ilə Qalanın (Şəhristanın) daxilində ucaldılmış İçqalanı qarışdırmış və ya birincinin haqqında ümumiyyətlə danışmayıb, ikincini Gəncə qalası kimi izah etmişlər. Doğrudur, Gəncə qalasının divarları öz möhkəmliyinə görə İçqalanın divarlarından çox geridə qalırdı. Bununla belə, onların dolaşdırılması bir çox rəqəmlərin düzgün izahına mane olmuşdur [10].

Tikildiyi yerin topoqrafik quruluşuna görə Gəncə qalası – XVI-XIX əsr Azərbaycan qalalarının bir çoxundan fərqlənirdi. Əgər Dərbənd, Bakı, Lənkəran qalaları günçıxandan dənizlə müdafiə olunurdusa, Şuşa, Şəki, Bayat qalaları yerləşdikləri yüksəkliyə görə təbii müdafiə elementlərinə malik idilərsə, belə təbii istehkamlar (günçıxandan qala divarlarının dibindən axan Gəncəçay nəzərə alınmazsa) Gəncə qalasının yerləşdiyi sakit-düz relyefdə yox idi. Bu baxımdan Gəncə qalasını Təbriz, Ərdəbil, Abbasabad və Xoy qalaları ilə müqayisə etmək məqsədəuyğundur. Bununla belə, təbii mühafizə şərtlərindən məhrum olan Gəncə qalası və İçqala tikintisinin vüsətinə görə adını çəkdiyimiz qalaların çoxunu geridə qoyurdu [11].

Gəncə qalası Gəncəçayın sol sahilində düzgün olmayan çoxbucaqlı şəklində idi. Divarlarının ümumi uzunluğu 13,7 km, hündürlüyü 12 m idi. Əsasən gil-palçıq və çay daşından hörülmüşdü. Güney-günbatan, quzey-günbatan və quzey-günçıxan tərəflərdə divarlar xüsusilə möhkəm idi [12]. 1804-cü ilin planına əsasən ehtimal etmək olar ki, bu sahələrdə divarların hörgüsündə çay daşı ilə yanaşı bişmiş kərpicdən də istifadə olunmuşdu. Həmin planda divar boyunca otuza qədər bürc göstərilmişdir. Aparılmış tədqiqatlara əsasən deyə bilərik ki, o bürclərin arasındakı məsafə 200 metrdən 500 metrə qədər olmuşdur. Bürclər Gəncə çayının sahili boyunca uzanan divarlarda, bir də qalanın Günbatan qurtaracağında – Quru qobunun kənarında çox seyrək tikilmişdi. Bu hal yəqin ki, təbii mudafiə elementlərinin (çay və dərə) yaxınlığı ilə şərtlənirdi. Bürclərdən başqa həmin divarlarda mağzallar və bacalar qoyulmuşdu ki, bunlar hücum edən düşmənə zərbə vurmaq üçün zəruri idi [13].

Doğrudur, 1804-cü ilin planında Sisianovun qoşunları qalanın içərisində, Şah Abbas meydanında, İçqalaya hücum vəziyyətində təsvir edilmişlər. Lakin məlumdur ki, Cavad xan ruslara qarşı əvvəlcə Quru qobuda, şəhərin 2 verstliyində döyüşmüş, məğlub olaraq tələsik İçqalaya çəkilmişdi. Ola bilsin ki, Cavad xan əvvəlcə düşməni qalaya buraxmaq istəməmiş, lakin qüvvəsinin zəif olduğunu görüb, ilk toqquşmadan sonra Ərkə (İçqalaya) sığınaraq müdafiə olunmuşdur [1-3; 14].

İctimai və ticarət mərkəzi olan Şah Abbas meydanı (ona bazar meydanı, Böyük meydan da deyirdilər), Cümə məscidi, əsas ticarət obyektləri – bazarlar, karvansaralar, divan-dövlət və ictimai binalar, şəhərin qədim məhəllələrinin çoxu və İçqala Qalanın içərisində – Şəhristanda (əsas şəhərdə, yerləşirdi. Rusların fəthindən sonra Qalada 213 yaşayış evi var idi. İçqalanın daxili (1-ci) və xarici (2-ci) divarlarından sonra 3-cü – Şəhristan divarları çəkilmişdir [15]. Qala divarlarının tikintisinin xronoloji ardıcıllıq nömrəsinə görə üçüncü qala divarı adlandırılan istehkamlar Şəhristanı əhatə edirdi. Onlar Günçıxandan Gəncəçayın sol sahili boyunca uzanır və quzeydə hazırkı 28 may küçəsinə keçirdi. Buradan günbatana – Quru qobuya kimi, qobunun yaxınlığında güney istiqamətində Tapqışlağa qədər çatırdı [16].

İçqala (Ərk) 1588-ci ildə türklərin tikdirdikləri, sonralar bir neçə dəfə bərpa olunmuş Qızıl Arslan qalasından ibarət idi. O, ikiqat divarlar ilə haşiyələnmişdi. Daxili divarlar bişmiş kərpicdən düzgün olmayan altıbucaqlı formada tikilmişdi. Bu divarların uzunluğu 3,5 verst (3,6 km), hündürlüyü 6-8 sajın (12,8-17 metr), qalınlığı 4-4,5 sajın (8,5-9,6 m) olmuşdur. Altıbucaqlının küncləri möhtəşəm bürclərlə möhkəmləndirilmişdi. İçqalanın günbatan qurtaracağındakı bürcdən başlayaraq saat əqrəbi istiqamətində onların adları belə idi: Yuxarı qapı bürcü (altıbucaqlı formada), Qafarbəy bürcü (beşbucaqlı), Hacı xan bürcü

DOI:10.30546/gdu.3.2024

(yeddibucaqlı), Qapı bürcü (yeddibucaqlı), Şirəlibəy bürcü (on bucaqlı), Cəfərbəy bürcü (altı-bucaqlı). Bu adlar ola bilsin ki, İçqala tikilərkən tikintiyə rəhbərlik edən memarların və ya onları sonradan bərpa etdirən yerli əyanların adı ilə bağlıdır [17-19].

Məsələn, Cavad xanın üstündə həlak olduğu Hacıxan bürcünün adı ehtimal ki, Gəncə bəylərbəyi Camışgəzək Hacı xanın adı ilə əlaqədardır. İçqalaya giriş qapılarının yanındakı bürclər isə həmin qapıların adı ilə çağrılırdı. Çox güman ki, Qapı bürcü I Şah Abbasın hücumu zamanı adı çəkilən Çardaq bürcünün sonrakı adıdır. Çardaq farsca "çar" - dörd və ərəbcə "taq" - tağ, sütun mənasında olan sözlərin birləşməsindən əmələ gəlmiş dörd tağı olan tikili, ev kimi anlaşılır. Qapının tağlı olmasını nəzərə alsaq, onu qoruyan bürcün adının Çardaq çağırıldığını qəbul edə bilərik.

İçqalaya giriş onun hər iki qapısından idi. Bu qapılar Şuşa və Şəki qalalarında olduğu kimi quzey-güney cəhətlərə yox, Həmədan qalasındakı kimi günəşin hərəkəti istiqamətində açılırdı. Günçıxandakı qapı Qarabağ qapısı, günbatandakı qapı isə Tiflis qapısı adlanırdı. İstehkam divarlarının üstündə altıbucaqlı şəklində hörulmuş qala dişləri – balıq beli bir-birini əvəzləyərək, müdafiə olunanları düşmən zərbələrindən qoruyurdu [20].

Divarların özündə isə müvafiq hündürlükdə mağzallar və bacalar qoyulmuşdu. Həmin yarıqlardan hücuma keçən düşmənin üzərinə qaynar qətran və yanar neft tökürdülər. İsgəndər bəy Münşi Şah Abbasın Gəncə qalasına hücumundan danışarkən yazırdı: "Qaladan ələnən alov şah əsgərlərini elə ütüləmişdi ki, saqqallı ixtiyarı bığ yeri təzəcə tərləyən cavandan ayırd etmək mümkün deyildi". Daxili divarlarla 70-80 metr məsafədə İçqalanı gil-palçıq və çay daşından tikilmiş xarici divarlar dövrələyirdi [21-22].

Xarici divarların hündürlüyü təxminən daxili divarların hündürlüyünə bərabər olsa da (N.Dubrovin xarici divarların hündürlüyünün 4 sajın (8,5 metr) olduğunu yazır, qalınlığı xeyli nazik idi. Xarici divarların ətrafında dərinliyi 6 metr, eni 4 metrdən 10 metrə qədər olan su xəndəyi çəkilmişdi. Xəndək ehtimal ki, Qalaya çəkilmiş arxların suyu ilə doldurulurdu [23].

Əksər orta əsr qalalarında olduğu kimi Gəncənin İçqalası da hələ türklərin tikdiyi yeraltı yollarla – tunellərlə təchiz olunmuşdu. Həmin yolların qalıqları indi də qalmaqdadır. Bu yolları tikməkdə əsas məqsəd qala düşmən əlinə keçə biləcəyi təqdirdə geri çəkilmək üçün müdafiəçilərə imkan vermiş olurdu. Lakin gəncəlilər bu imkandan bircə dəfə, özü də haqqında danışdığımız qalada yox, Köhnə Gəncədəki qalada istifadə etmişdilər. Monqol qoşunları Gəncə qalasını tutarkən kiçik bir dəstə bu yolla şəhərdən qırağa çıxa bilmişdi [24].

Qaladan kənara üç yol çıxırdı. Günbatanda İrəvan yolu (Balçılı-Asiya körpüsü-Bayan-Qaraçinar-Əmirvar-Qabaqtəpə-Çanaxçay körpüsü-Şişqaya-Göyçə-İrəvan-Naxçıvan-Türkiyə), Kür yolu (Samux-Mingəçevir keçidi-Şəki; Gəncəbasar-Qarasaqqal-Eldar-Sığnaq) və Tiflis yolu (Şəmkir-Zəyəm-Ağstafa-Sınıq körpü-Şüləver-Borçalı-Tiflis), Şuşa yolu (Kürəkbasan-Bərdə-Ağdam-Şuşa) Gəncənin əsas ticarət yolları idi. Onların hər üçü qala düzündə birləşərək Güneydən İçqalanı dövrələyirdi [25].

İçqalanın güney-günçıxanında divarlarının uzunluğu 1500 addım olan Narınqala (Balaqala) var idi. Burada əzəmətli xan sarayı, xan məscidi, zərbxana, divanxana yerləşirdi. Narınqala düzgün olmayan beşbucaqlı formasında olmaqla 5 bürclə qorunurdu. Bürclərin üçü (Qapı, Şirəlibəy və Cəfərbəy bürcləri) İçqalanın bürcləri ilə müştərək tikilmişdi [26-27].

Digər iki bürc Narınqalanın künc səmtində və giriş yolunun yanındakı xan məscidinin yaxınlığında idi. Bu həmin məsciddir ki, rus qoşunları qalanı tutarkən oraya sığınmış 500 bədbəxti aldadaraq tərksilah etmiş və hamısını qırmışdılar [28].

1815-ci ildə gürcü metropoliti və ekzarxı Varlaamın təşəbbüsü ilə Gəncədə yaşayan hərbçilər və məmurlar üçün tikilməyə başlayan pravoslav kilsəsi Xan məscidinin lap yaxınlığında (və ya onun yerində) ucaldılmışdı. Yəqin ki, bu kilsənin inşasında viran edlimiş

DOI:10.30546/gdu.3.2024

məscidin tikinti materiallarından istifadə olunmuş və məscid yer üzündən beləcə silinmişdi. Rus-pravoslav kilsəsi isə artıq XIX əsrin 40-cı illərində fəaliyyət göstərirdi [29].

Narınqalanın əsas qapısından daş döşənmiş geniş yol Xan məscidinin yanından keçərək burada ən yaraşıqlı bina olan Xan sarayına qədər uzanırdı. Həmin yol fəvvarələr və ekzotik ağaclarla bəzədilmişdi. Fəvvarələrdə suyun oynaması üçün Narınqalaya çəkilmiş arxların suyundan istifadə olunurdu. Xan sarayı ikimərtəbəli bina olub, yerli mərmərdən və kəsmə daşlardan tikilmiş, tavanı böyük kümbəzlərlə örtülmüşdü Zərbxana və divanxana saray kompleksinə daxil olmaqla, Narınqalanın quzey-günçıxanında yerləşirdi. Yuxarıda adını çəkdiyimiz Xan sarayından başqa İçqalada xana məxsus daha 18 ev var idi. Bu tikililər və qalanın yeraltı yollarının bir hissəsi XIX yüzilliyin II rübündə xan xəzinəsini axtaranlar tərəfindən qazıq-qazıq edilmiş və xarabazara çevrilmişdi [30].

Lakin sonradan məlum olmuşdu ki, Qalanın yeraltı yollarında və Xan bağında gizlədilmiş xəzinəni Cavad xanın oğullarından biri (ehtimal ki, Uğurlu ağa) gizlincə şəhərə gələrək götürmüş və İrana aparmışdır. V.Potto yazır ki, "…sirli şəkildə yoxa çıxmış xəzinədən xəbər tutan ermənilər daha çox məyus olmuşdular. Onların əlindən sürüşüb çıxmağa macal tapmış bu xəzinəni xatırlayaraq gizlində ah-vay edirdilər" [31-32].

İçqalada əsasxana, həbsxana, dəyirman, iki hamam və xan soyuna məxsus kiçik əkin və bağ yerləri də var idi. Bağlar və əkin sahələri buraya çəkilmiş iki arxla suvarılırdı. Narınqalanın giriş qapısı ilə Qarabağ qapısı arasında yerləşən Cavad xan kəhrizi qala mühasirədə olarkən müdafiəçilərin içməli suya olan tələbatını ödəyirdi. İçqalada çoxlu qazma tipli sığınaqlar tikilmişdi ki, düşmən hücumu zamanı Şəhristanın və Bayırşəhərin sakinləri onlarda sığınacaq tapırdılar. Hazırki şəhər həbsxanasının yerində, çox ehtimal ki, o vaxt Narınqala olmuşdur [33].

Yerli əhali indinin özündə də həbsxanaya "qala" deyir. Ərdəbil şəhərindəki "qala", Şəkidəki Vəndam kəndindəki "Qala yeri", Gəncəbasardakı "Qala yeri", Gəncədəki "Qala düzü" və "Qala" toponimləri vaxtilə həmin yerlərdə mövcud olmuş, sonralar dağılmış qalaların tutduğu ərazini göstərir [34].

Gəncə qalasının yerində (yəni İçqalanın ərazisində) sonralar Sərdar bağının - Xan bağının salınması haqqında yerli əhali arasında gedən söhbətlərlə bağlı bir neçə kəlmə də həmin şəhər bağı haqqında danışmaq lazım gəlir. 1847-ci ildə Qafqaz canişini knyaz M.S.Vorontsovun təşəbbüsü ilə ("Sərdar bağı" adı bu şəxslə əlaqədardır) Gəncədə o zaman "Cənubi Rusiyanın ən gözəl bağı hesab olunan" şəhər parkının əsası qoyulmuş, məşhur çinarlı xiyaban salınmışdı. Parkın əvvəlki yeri İçqalanın güney hissəsi ilə Bala Bağman və Ozan məhəllələri arasındakı Qala düzü idi [35].

Göründüyü kimi, şəhər bağının qalanın yerində salınması mülahizəsi qismən doğrudur. Belə ki, İçqalanın xarici divarlarının güney hasarı Sərdar bağının ərazisinə düşdüyündən artıq 1847-48-ci illərdən dağıdılmışdı. 1860-cı ilə kimi Qala düzü ilə Bala Bağman və Zərrabi məhəllələrinin hüdudlarında mövcud olmuş meyvə bağları da istirahət və ictimai gəzinti funksiyası daşıyan şəhər bağına qatılmış, Böyük Bağmandakı Xan bağının ləğv edilməsi nəticəsində oradakı ağacların bir qismi Sərdar bağına köçürülmüşdü. Buradakı həmişəyaşıl ağaclar isə əsasən Batumdan və Krımdan gətirilmişdir. Beləliklə, Şəhər-Vorontsov bağının sahəsi 5 desyatin 1870 kvadrat sajına (13870 kv. sajın və ya təxminən 6 hektar) çatdırılmışdı. 1897-ci ilin martında Gəncəyə şəhər özünüidarə hüququ verildikdən sonra Sərdar bağının güneyində əhalinin "Dum" adlandırdığı Zemstvo idarəsinin binası tikilmişdi (hazırda həmin bina Azərbaycan Dövlət Aqrar Universitetinin baş binasıdır). Bu idarə şəhər küçələrinin, bağlarının, sanitariya və təhsil müəssisələrinin, ticarətin qaydaya salınmasına çalışırdı [36]. V.İ.Leninin "arabanın beşinci təkəri" adlandırdığı zemstvo idarələri real imkanlarının zəifliyi ucbatından öhdəsinə düşən vəzifələrin öhdəsindən çox çətinliklə gəlirdi. İdarənin maliyyə

DOI:10.30546/gdu.3.2024

vəsaitini əhalinin könüllü ianə formasında topladığı pullar və yükdaşıma peşəsi ilə məşğul olan arabaçılardan alınan vergilər və s. təşkil edirdi. 1899-cu ildə Zemstvo idarəsinin təşəbbüsü ilə Sərdar bağı yenidən qurulmuş və kiçik dəyişikliklərlə indiyədək olduğu kimi qalmışdır [37].

Gəncədə Sərdar bağından başqa daha iki bağ: Goburnat bağı və Aleksandr bağı da var idi. Goburnat bağı 1890-1900-cu illərdə Gəncə çayının sağ sahilində, Quberniya idarəsi və "Modern" sinematoqrafi (sonradan "Smena" kinoteatrı) yaxınlığında salınmışdı. Burada qlediç, ağ akasiya, cökə, sərv, küknar, çinar, maqnoliya, dəfnə, Xamerops palması və s. ağaclar əkilmişdi. Goburnat bağı Gəncə qubernatoru A.D.Nakaşidzenin göstərişi ilə salındığı üçün belə çağırılırdı. Gəncəçayın sol sahilində şəhər "Forer teatrı"nın (indiki C.Cabbarlı adına Gəncə Dövlət Dram teatrının yerində olubyaxınlığında hələ xanlıqlar dövründən qalmış bağın davamı kimi 1900-cü ildə III Aleksandr bulvarı salınmışdı. "Forer teatrı"ndan quzeyə "Mürsəl ocağı" və qəbiristanlığına tərəf nazik bir zolaq halında yaradılmış həmin bağ sonralar "Tiflis bulvarı" adlandırılmışdı [38].

***Nəticə***

Əlverişli coğrafi mövqeyinə görə Gəncə şəhəri tarixin keşməkeşlərində daim vacib hərbi-strateji durum vəzifəsini yerinə yetirirdi. Bu fikir general Sisianovun Qafqazın mülki valisi Qasparova yazdığı "bütün şimali Azərbaycanı qorxu altında saxlayan Gəncə qalasının mövqeyi, onun alınmasının Rusiya üçün necə böyük bir əhəmiyyətə malik olması" sözləri ilə təsdiq edilir. Hələ Böyük Şah Abbas dövrundən "Şamaxının açarı" hesab edilən bu qədim şəhər XIX əsrin ortalarına qədər Şirvan və Qarabağa quzey-günçıxandan həyata keçirilə biləcək hər cür qəsdlərin qarşısını alan qalxan hesab olunurdu. Buraya sahib olmadan şimali Azərbaycan torpaqlarına yiyələnmək mümkün deyildi. Ona görə də şəhər tez-tez müharibələr meydanına çevrilir, dağıdılır, yenidən bərpa olunurdu. Belə müharibələr, zaman-zaman təkrar olunan basqınlar (XVIII əsrin sonlarında təkcə gürcü çarı II İrakli Gəncəyə dörd dəfə yürüş etmişdi) yaşamaq uğrunda mübarizə aparan şəhərin müdafiəsi qayğısına qalmağı tələb edirdi. Bunun üçün isə güclü istehkamları olan möhkəm qala tikilməsi zəruri idi. Bu qala şəhərin əzəmətinin göstəricisi idi və Gəncənin memarlıq quruluşuna nəzər saldıqda İçqala, Şəhristan və Bayırşəhərdən ibarət olduğu, orta əsrlər şəhərinin silki bölümünü əks etdirməklə əhalinin sosial tərkibini də göstərdiyi üzə çıxır. Artıq son orta əsrlər dövründə, XVIII yüzilliyin ortalarında Gəncənin hər iki sahildəki hissələrinin birlikdə hüdudu 25-30 milə bərabər idi. Doğrudur, bu rəqəm indi bizə bir qədər şübhəli görünür. Amma nəzərə alsaq ki, 1647-ci ildə Gəncədə olan Evliya Çələbi onu 6 min evi (təxminən 40 min əhalisi) olan böyük şəhər adlandırır, 1652-ci ildə buradan keçən A.Suxanov şəhərin həddən artıq böyük olduğunu göstərir, XVIII yüzilliyin başlanğıcında Holland səyahətçisi Kornelius de Bruin Gəncənin Şamaxıdan dörd dəfə böyük olduğunu iddia edir, onda həmin rəqəmin o qədər də şişirdilmədiyi aydın olur. Məxəzlər Gəncə hüdudlarının 1820-ci il 21 km, 1830-cu ildə 17 verstdən az olmadığı haqqında məlumat verirlər. Göründüyü kimi, bir əsrə bərabər vaxt vahidi ərzində şəhərin sahəsi nəzərə çarpacaq dərəcədə kiçilmişdi ki, bu da hər şeydən əvvəl XVIII yüzilliyin birinci rübündən, ta XIX əsrin 30-cu illərinə kimi daim müxtəlif müharibələrin döyüş meydanına çevrilən, daim hücumlara və basqınlara məruz qalan Gəncənin getdikcə öz öncəki əhəmiyyətini itirməsi və şəhərin xeyli hissəsinin boşalması ilə əlaqədar idi. Bu mülahizəni rus general-mayoru Xovenin 1823-cü il fevralın 6-da general-leytenant Velyaminova raportundakı "nə vaxtsa mövcud olmuş tikililərin xarabalıqları şəhərin (Gəncənin) böyük hissəsini təşkil edir", – sözləri də sübut edir. Həmin raportda və Qafqaz canişini general Yermolovun 29 aprel 1824-cü il tarixli məktubunda Gəncəni hüdudlayan çevrənin 20 verstə bərabər olduğu (1500 ev, 7000 əhali) qeyd edilir. General Yermolov 20

DOI:10.30546/gdu.3.2024

verstlik dairədə bu qədər az – 7 min əhali yaşamasının səbəbini şəhərin çox hissəsinin 1300-ə yaxın bağ sahəsinin altında olması ilə izah edir.

Lakin şəhərin sahəsinin kiçilməsinin, eləcə də əhalisinin kəskin şəkildə azalmasının başlıca səbəbi yuxarıda qeyd etdiyimiz kimi dağıdıcı müharibələr və onların nəticələri idi. Göstərilən dövrdə Gəncə Dağıstan feodalları Əhməd xanın, Əmir Həmzənin, Surxay xanın, Hacı Davudun, Krım və Osmanlı qoşunlarının, Kartli, Kaxetiya (Gürcüstan) hakimləri VI Vaxtanqın, II İraklinin, Azərbaycan xanları Fətəli xan Əfşarın, İbrahimxəlil xanın, Ərəşli Əli sultanın, Şəmşəddilli Əli sultanın hücumlarına məruz qalmışdı. Ədalət naminə onu da demək lazımdır ki, 1725-ci ildə Gəncəni ələ keçirən Sarı Mustafa paşanın qoşunları şəhəri dağıtmamış, əksinə, onlar xeyli tikinti-abadlıq işləri aparmışdılar. Lakin 1734-1735-ci illərdə Gəncəyə hücum edən Nadir xan Əfşarın apardığı müharibələr şəhərə baha başa gəlmişdi.

Əhalinin buradan ən güclü axını və şəhərin xeyli hissəsinin boşalması isə 1804-cü ildə Gəncənin rus qoşunları tərəfindən işğal olunmasından sonra baş vermiş, bu proses 1828-ci il Türkmənçay sülh müqaviləsi bağlanana qədər davam etmişdi. Beləliklə, qısa fasilələrlə yüz ildən artıq davam edən bu qanlı müharibələr şəhər təsərrüfatına dağıdıcı təsir göstərmiş, əhalini öz doğma yurd-yuvalarını tərk edib Şirvana, Qarabağa, İrana, Türkiyəyə köçməyə vadar etmişdi.

Gəncə xanlığının süqutundan keçən bir qərinə ərzində şəhərin xarici görünüşündə, şəhər təsərrüfatında və ictimai həyatda elə bir inkişaf nəzərə çarpmırdı. Əksinə, bu dövrdə xeyli ictimai və yaşayış binaları dağılmış, əhalinin sayı nəzərəçarpacaq dərəcədə azalmışdı. Digər Azərbaycan şəhərlərində olduğu kimi Gəncədə də komendant üsul-idarəsi yaradılmış, bütün siyasi hakimiyyət hərbi komendantın əlində cəmləşmişdi.

Əhali komendant üsul-idarəsindən çox narazı idi. Bu, xüsusilə "otkup" deyilən vergi sistemi ilə bağlı idi. Həmin sistemə görə ticarət, sənətkarlıq, bağçılıq və digər peşə sahələrində çalışan sakinlər istehsal olunmuş məhsulun miqdarına görə qəti müəyyən olunmuş vergi ödəməli olurdular. Şəhər nümayəndələrinin şikayət məktubunda xanlıqlar dövrundə olmayan yeni-yeni vergilər sadalanıb, onlara qarşı etiraz bildirilmişdi.

1826-1828-ci illər Rusiya-İran müharibəsindən, həmin əsrin 30-cu illərinin ikinci yarısındakı Şimali Azərbaycanın əksər qəzalarını bürüyən antirus hərəkatından sonra komendant üsul-idarəsi öz ömrünü başa vurdu. Bu münasibətlə 1840-cı ilin aprelində çar hökuməti Zaqafqaziyada inzibati islahat haqqında qanun verdi. Bu qanuna görə Gəncə dairəsinin yerində Gəncə qəzası yaradıldı və o, Tiflis-İmmeretiya quberniyasına daxil edildi. Bu islahatla Rusiyanın daxili quberniyalarındakı idarə sisteminin Qafqaza da tətbiqi çarizmin müstəmləkəçilik siyasətini daha da möhkəmləndirirdi.

Lakin bu islahat da özünü doğrultmadığından 1846-cı ilin axırlarında yeni inzibati bölgüsü həyata keçirildi. Gəncə qəzası yenə Tiflis quberniyasının tərkibində qaldı.

1856-cı ildə Tiflis hərbi qubernatorunun göstərişi ilə Gəncənin planı işlənib hazırlanmağa başlandı. Bunu şəhərin böyüyərək 1774 desyatinə çatmış sahəsi, əsasən plansız surətdə aparılan tikintilərin nisbətən genişlənməsi tələb edirdi. Lakin həmin plan 1857-ci ilin iyununda Zaqafqaziya ölkə tikinti komissiyasına təqdim olunsa da, şəhərin simasında elə bir dəyişiklik həyata keçirilmədi. Təkcə şəhərin dövlət xəzinəsinə mənsub olan hissələrində küçələr bir qədər genişləndirildi.

Rusiyaya birləşdirilərkən Tiflis, İrəvan və Xəzər quberniyalarına daxil edilmiş Qarabağ və Gəncə vilayətlərinin hesabına 1868-ci ildə mərkəzi Gəncə şəhəri olmaqla Yelizavetpol quberniyasının təşkil olunması, Bakı-Tiflis dəmir yolunun çəkilməsi və bu yolun Gəncə yaxınlığından keçməsi burjua münasibətlərinin inkişafı üçün əlverişli şərait yaratdı. Rusiyada kapitalizmin eninə inkişafı Gəncənin də iqtisadi simasını müəyyənləşdirirdi. Şəhər mərkəzi Rusiyanın sənaye cəhətdən inkişaf etmiş rayonları üçün xammal bazarı rolunu oynayırdı.

DOI:10.30546/gdu.3.2024

Göstərilən dövrdə Gəncə Qafqazda taxıl və pambıq istehsalının mərkəzi kimi formalaşmağa başlayır.

Bundan başqa, Gəncədə ipəkçilik sənayesi üçün barama, şərabçılıq müəssisələri üçün üzüm yetişdirilirdi. Şəhərin əsas sənaye müəssisələri gəc zavodu, tütün fabriki, beş pambıqtəmizləyən zavod, şərab və limonad zavodları, biyan kökü istehsal edən zavod və s. idi. Məxəzlər şəhərdəki sənaye müəssisələri və onlarda işləyən fəhlələr haqqında ziddiyyətli bilgilər verirlər. Bu, ilk növbədə onların kəmiyyət göstəricisinə aiddir. Belə ki, mənbələrdə XIX-XX yüzilliklərin hüdudlarında Gəncədə 56, 71, 111 sənaye müəssisəsi və onların sayına müvafiq olaraq həmin müəssisələrdə 276, 376, 1700 fəhlə işlədiyi haqqında məlumatlar vardır.

Həmin dolaşıq bilgilər Gəncədəki, burjua münasibətlərinin xarakterindən irəli gəlir. Çünki burada (əsasən XX əsrin 70-ci illərindən etibarən) sənaye kapitalizmi yox, kənd təsərrüfatı və ticarət kapitalizmi daha çox inkişaf etmişdi. Sənaye kapitalizmi isə hələ rüşeym halında olmaqla, əsasən kustar xarakter daşıyırdı. Gəncənin iqtisadi simasında onun aqrar həyatla bağlılığı qabarıq şəkildə nəzərə çarpırdı. Əhalinin böyük bir hissəsi sənət və ticarətlə yanaşı bağçılıq, üzümçülük, şərabçılıq, maldarlıq və əkinçiliklə məşğul idi.

Təhkimçilik hüququnun süqutundan sonra Rusiyanın kapitalist inkişaf yoluna düşməsi XIX yüzilliyin ikinci yarısında Azərbaycan şəhərinin ictimai-iqtisadi inkişafına təkan verdi. Şəhərlərdə təsərrüfat həyatının canlanması, həm də vahid pul və ölçü-çəki sistemlərinin tətbiq olunması ilə şərtlənirdi. Bu akt qədim ticarət və sənətkarlıq ənənələrinə malik olan Gəncənin tərəqqi etməsi üçün xüsusi əhəmiyyətli rol oynadı. XIX yüzilliyin birinci yarısında iqtisadi göstəricilərinə və Azərbaycanın ictimai-siyasi həyatında tutduğu mövqeyə görə Gəncə artıq əsrin 80-ci illərində sürətlə inkişaf edərək Şimali Azərbaycan şəhərləri içərisində ikinci (Bakıdan sonra) yerə çıxdı. Şəhərin ümumi inkişafında milli memarlıq ənənələrinə uyğun olan abidələrlə yanaşı, dövrün tərəqqisinə müvafiq olaraq ucaldılan çoxsaylı tikililərin inşası diqqəti cəlb edir. Beləliklə, sosial-iqtisadi inkişaf göstəriciləri ilə yanaşı, dövləçilik tariximizdə xüsusi əhəmiyyəti olan Gəncə şəhərinin orta əsrlər dövrünə aid memarlıq irsi milli mədəniyyətimizin incisi kimi dəyərlidir.

### *Ədəbiyyat*

1. Əhmədov F.M. Gəncənin tarix yaddaşı. Gəncə: Elm, 2007. 246 s.
2. Бабазаде Э.Т. Из истории Гянджинского ханства. Баку: MSA, 2012. 256 с.
3. Hasanov E.L. Innovative study of historical heritage of Ganja city based on cultural-literary materials // Manuscript and Book Heritage of Ukraine, 2023, № 31. P. 271-286. **DOI**: https://doi.org/10.15407/rksu.31.271.
4. Hasanov E.L. Significance of the written sources in study of medieval heritage of Ganja // Manuscript and Book Heritage of Ukraine, 2024. № 32(1). P. 116-134. **DOI:** https://doi.org/10.15407/rksu.32.116
5. Ахмедов Ф.М. Депортация Азербайджанских тюрков. Газета «Новости Гянджи», № 127 (8598). 29 ноября 1990 г., с. 3.
6. Ахмедов Ф.М. Вернуть подлинные имена. Газета «Новости Гянджи», № 9 (8619). 22 января 1991 г., с. 3.
7. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi Dövlət Arxivinin Gəncə şəhər filialı. F. 20, s. 4, iş 12, v. 3-5.
8. Hasanov E.L. Nizami Ganjavi 880: heritage of Ganja based on architectural and craftsmanship features of Sebzikar graveyard. International Scientific Journal Theoretical & Applied Science, Philadelphia (USA), 2021. Issue 01, volume 93, part 2, p. 144-150. DOI: https://dx.doi.org/10.15863/TAS.2021.01.93.25

DOI:10.30546/gdu.3.2024

9. Hasanov E.L. Innovative significance of research of traditional architectural features of Ganja. TSU-TI — The International Scientific Journal of Humanities, 2022, No 1(1), p. 71-74. DOI: https://doi.org/10.55804/TSU-ti-1/Hasanov
10. Mustafazadə T.T. Azərbaycan-Rusiya münasibətləri XVIII əsrin ikinci yarısı – XIX əsrin əvvəllərində. Bakı: "Şərq-Qərb", 2013. 528 s.
11. Mustafazadə T.T. XVIII-XXI əsrin əvvəllərində Azərbaycanın beynəlxalq siyasi münasibətləri (tarixi oçerklər). Bakı: "Avrora", 2013. 544 s.
12. Донесение генерала, графа Валериана Зубова его светлости командующему войсками в Крыму и южных губерниях расположенными и флотами на Черном и Каспийском морях генералу и ковалеру князю Григорью Александровичу Потемкину // РГВИА, фонд 41, оп. 200, д. 628, л. 1.
13. Его светлости командующему войсками в Крыму и южных губерниях расположенными и флотами на Черном и Каспийском морях генералу и ковалеру князю Григорью Александровичу Потемкину, // РГВИА, фонд. 52, оп. 366, ч. 2, л. 224.
14. Его светлости командующему войсками в Крыму и южных губерниях расположенными и флотами на Черном и Каспийском морях генералу и ковалеру князю Григорью Александровичу Потемкину, // РГВИА, фонд. 52, оп. 1, д. 281, л. 43.
15. Из истории российско-грузинских отношений. К 230-летию заключения Георгиевского трактата: сборник документов / Отв. сост. И.В. Зайцев. М.: Древлехранилище, 2014. 765 с.
16. Мамедова Г. О походе В.Зубова в Азербайджан в 1796 г. Баку, 2003. 94 с.
17. Мустафаев Дж. Северные ханства Азербайджана и Россия (конец XVIII-начало XIX в). Баку: Элм, 1989. 126 с.
18. Həsənov E.L. Gəncə Ġmamzadə türbəsi. Bakı: Elm və təhsil, 2012, 268 s.
19. Писмо царя Ираклия генералу и ковалеру князю Григорью Александровичу Потемкину // РГВИА, ф. 52, оп. 1, д. 286, ч. 1, л. 34, д. 366, ч. ГУ, л. 155. л. 251-252.
20. Приказ от Императрици Екатерины II генералу и графу Валериану Зубову // РГВИА, фонд 41, оп. 200, д. 614а, л. 331-332.
21. Планы и описания городов, крепостей, селений и других населенных пунктов бывшей Российской империи // РГВИА, ф. 349, оп. 3, д. 3329, д. 3334, д. 3338, д. 3339.
22. План города Елисаветполя // РГВИА, ф. 1105, д. 80, л.1-2, 14-15.
23. План Гянджинской крепости // РГВИА ф. 349, оп. 12, д. 6055, л. 78-83.
24. Россия и Азербайд. ханства во второй половине XVIII-XIX веков (Сборник документов). Т.1(1751-1775 гг) Составитель Т.Т.Мустафазаде. Б: Турхан ИПО, 2018. 337 с.
25. Россия и Азербайджанские ханства во второй половине XVIII-XIX веков (Сборник документов). Т.2 (1776-1800 гг.) Т.Т.Мустафазаде. Баку: Турхан ИПО, 2020. 568 с.
26. Саламзаде А. Архитектура Азербайджана XVI-XIX вв. Баку: Издательство Академии Наук Азербайджанской ССР, 1964. 253 с.
27. Hasanov E.L. Research of historic-cultural heritage of medieval Ganja based on information about the Nizami Ganjavi family // Pravnehistoricke Studie, 2024. № 54(1). P. 19-29. **DOI:** https://doi.org/10.14712/2464689X.2024.3
28. Hasanov E.L. Applied significance of investigation of handicrafts branches in Ganja city based on innovative technologies (Historical-ethnographic research). Prague: Vědecko vydavatelské centrum "Sociosféra-CZ" , 2018, 110 p. ISBN 978-80-7526-323-0.
29. Häsänow E.L. Geschichtliche und ethnographische Merkmale der charakteristische Ornamente von traditionellen Gändschänischen angewandten Künsten. European Science and Technology (Die Europäische Wissenschaft und die Technologien): 21st International scientific conference. Munich (Germany), October 24-25, 2018, p. 11-18.

DOI:10.30546/gdu.3.2024

30. Hasanov S.L., Hasanov E.L. Applied features of comparative technical, sociological investigation of historical and contemporary heritage of Azerbaijan. International Scientific Journal Theoretical & Applied Science, 2018. Issue 1, volume 57, part 1. p. 9-16. DOI: https://dx.doi.org/10.15863/TAS.2018.01.57.2
31. Hüseynova S.B. Gəncə şəhəri haqqında bəzi etnoqrafik qeydlər (XX əsrin əvvəlləri). Kirovabadın maddi, mədəni və ictimai həyatına həsr edilmiş II elmi konfransın materialları. Bakı, 1987, s. 37.
32. Həsənov E.L. Gəncədə şəhər mədəniyyətinin inkişafında multikultural dəyərlərin əhəmiyyəti. Azərbaycan Milli Elmlər Akademiyası Gəncə Bölməsinin "Xəbərlər məcmuəsi". İctimai və humanitar elmlər seriyası, № 1(5),Gəncə, 2023, s. 55-64.
33. Muradov V.H. Orta əsr Azərbaycan şəhərləri, Bakı: Maarif, 1983. 155 s.
34. Mustafayev A.N. Azərbaycanda sənətkarlıq. Bakı: Altay, 2001. 232 s.
35. Nemət M.S. Azərbaycanda pirlər. Bakı: Azərnəşr, 1992, 104 s.
36. Poulmarc'h M., Laneri N., Hasanov, E.L. Innovative approach to the research of ethnographic-archaeological heritage in Ganja based on materials of kurgans. International Scientific Journal Theoretical & Applied Science, 2019. Issue 09, volume 77, part 4. p. 341-345. DOI: https://dx.doi.org/10.15863/TAS.2019.09.77.60
37. Smith W., Hasanov E.L. Importance of handicraft traditions in investigation of history of urban culture in Ganja. International Scientific Journal Theoretical & Applied Science, 2013. Issue 11, volume 7, p. 61-66. DOI: http://dx.doi.org/10.15863/TAS.2013.11.7.10

## ЗНАЧЕНИЕ ПИСЬМЕННЫХ ИСТОЧНИКОВ В ИЗУЧЕНИИ СРЕДНЕВЕКОВОГО АРХИТЕКТУРНОГО НАСЛЕДИЯ ГОРОДА ГЯНДЖИ

***Гасанов Эльнур Лятиф оглу***

***Резюме***

В научной статье изучены характерные аспекты развития традиционной архитектуры и строительного искусства в средневековый период в городе Гянджа, имеющем древнее и богатое историческое прошлое. Наряду с различными источниками, в том числе археологическими находками, этнографическими образцами, примерами материальной культуры, особое значение в исследовании архитектурно-ремесленных особенностей имеют и письменные источники. На основе различных научных источников, архивных документов, исторических источников, научных трудов отечественных и зарубежных исследователей изучено значение многовековых архитектурно-ремесленных традиций города как источника в развитии местной городской (урбанизационной) культуры.

## SIGNIFICANCE OF WRITTEN SOURCES IN RESEARCH OF THE MEDIEVAL ARCHITECTURAL HERITAGE OF GANJA CITY

***Hasanov Elnur Latif***

***Summary***

Characteristic aspects of the development of traditional architecture and the art of construction in the medieval period in the city of Ganja, which has an ancient and rich historical past, have been studied in this scientific article. Along with various sources,

DOI:10.30546/gdu.3.2024

including archaeological finds, ethnographic samples, material culture samples, written sources are also of special importance in the investigation of architectural and craft features. On the basis of various scientific sources, archival documents, historical sources, scientific works of local and foreign researchers, the significance of the centuries-old architectural and craft traditions of the city as a source in the development of local urban (urbanization) culture has been studied.

***Rəyçilər: Millət vəkili, tarix üzrə fəlsəfə doktoru, dosent Pərvin Kərimzadə, t.ü.f.d., dos. Elgün Aslanov.***

***Gəncə Dövlət Universitetinin Ümumi tarix kafedrasının 19 iyun 2024-cü il tarixli iclasının 08 saylı protokolu.***

***Daxil olma tarixi 11 sentyabr 2024-cü il***